# NƏRİMAN SEYİDƏLİYEV - 70



Filologiya elmləri doktoru Nəriman Fərman oğlu Seyidəliyev 1950-ci il martın 6-da Cəbrayıl rayonunda anadan olmuşdur. 1968-ci ildə Cəbrayıl rayonu akademik M.Mehdizadə adına orta məktəbi bitirmişdir.

1971-1975-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun (indiki Azərbaycan Dillər Universiteti) alman dili fakültəsində təhsil almışdır. O, hələ tələbəlik illərindən dövri mətbuatda müxtəlif publisistik və elmi məqalələrlə çıxış etməyə başlamışdır.

Cəbrayıl rayonunda yerləşən Quycaq kənd orta məktəbində 1975-1979-cu illərdə müəllim işləmiş, 1982-ci ildə Azərbaycan Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun dissertantı olmuş və 1989-cu ildə "Azərbaycan dilində üslubi sinonimlər" mövzusunda namizədlik dissertasiyası (elmi rəhbəri: akademik M.Ş.Şirəliyev olmuşdur) müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 10 il sonra – 2009-cu ildə "Azərbaycan dastan və nağıl dilinin frazeologiyası" mövzusunda doktorluq dissertasiyasını (elmi məsləhətçisi: professor İ.O.Məmmədli) uğurla müdafiə etmiş, filologiya elmləri doktoru elmi dərəcəsi almışdır.

Nəriman Fərman oğlu Seyidəliyev 1994-cü ildən AMEA Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsində işləyir. Onun elmi yaradıcılığı geniş və əhatəlidir. Belə ki, o, elmin müxtəlif sahələrinə – bilinqivizm, leksikologiya, üslubiyyat, onomastika, terminologiya, semasiologiya, nitq mədəniyyəti, frazeologiya və leksikoqrafiyaya aid 200-dən artıq elmi əsərin, 20-dən artıq kitab, lüğət və kollektiv monoqrafiyanın müəllifi, 18 kitabın redaktoru, 25-dən çox kitabın rəyçisidir. "Azərbaycan dastan və nağıl dilinin frazeologiyası" monoqrafiyası 2006-cı ildə çap edilmişdir.

N.Seyidəliyevin "Dini terminlər lüğəti" (Bakı, 1996, 2015 və 2018), "Azərbaycan dilinin izahlı lüğəti" (tərtibçilərdən biri) (3 cildlik, Bakı, 1997, 1999-2000), "Alman atalar sözləri, onların azərbaycanca və rusca qarşılıqları" (həmmüəllif, Bakı, 2001), "Azərbaycan dilinin sinonimlər lüğəti" (Dərs vəsaiti, Bakı, 2003), "Azərbaycan dilinin orfoqrafiya lüğəti" (kollektiv, Bakı, 2004 və 2013), "Frazeologiya lüğəti" (Bakı, 2004), "İxtisarlar lüğəti" (həmmüəllif, Bakı, 2005), "İzahlı onomastik terminlər lüğəti" (həmmüəllif) (Bakı, 2005), "Azərbaycan dilinin sinonimlər lüğəti" (Prezident İlham Əliyevin sərəncamı ilə) (Bakı, 2007), «Стилистические синонимы в современном азербайджанском языке» (monoqrafiya) (Баку, 2010), "Səməd Vurğunun bədii dilinin izahlı lüğəti" (kollektiv, Bakı, 2011), "Müasir Azərbaycan dilində üslubi sinonimlər" (monoqrafiya) (Bakı, 2012), "Yeni sözlər və yeni mənalar lüğəti" (kollektiv) (Bakı, 2016), "Azərbaycan dilində işlənən alman mənşəli beynəlxalq sözlərin izahlı lüğəti" (Bakı, 2017), "Afad Qurbanov və ümumi dilçilik" (2019) monoqrafiya, "İxtisarlar lüğəti" (kollektiv) (Bakı, 2019) kitabları nəşr olunmuşdur.

N.Seyidəliyevə 06 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə "Baş elmi işçi" elmi adı verilmişdir.

O, hazırda Azərbaycan Milli Elmlər

Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsinin baş elmi işçisidir. 2012-2016-cı illərdə AMEA Nəsimi adına Dilçilik İnstitutunun nəzdindəki Dissertasiya şurasının elmi katibi olmuşdur. 2017-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında Ekspert şurasının üzvüdür. 2010-cu ildə elmi fəaliyyəti və anadan olmasının 60 illiyi ilə əlaqədar AMEA-nın fəxri fərmanı ilə təltif olunmuşdur. 2012-ci ildə "Qızıl qələm" mükafatına layiq görülmüş və "İlin nüfuzlu ziyalısı – İlin dilçi alimi" fəxri diplomu ilə təltif olunmuşdur. 2017-ci ildə "İlin adamı" media mükafatına və "Elm fədaisi" fəxri diplomuna layiq görülmüşdür.

Nəriman Seyidəliyev Dilçilik İnstitutunda işlədiyi 25 il müddətində dilçilik elminin frazeologiya, üslubiyyat, terminologiya, semasiologiya, nitq mədəniyyəti leksikoqrafiya kimi sahələrinə aid 200-dən artıq elmi əsərin monoqrafiya, lüğət və başqa əsərlərin müəllifidir. O, bir sıra beynəlxalq, ümumittifaq və respublika miqyaslı simpozium, konfrans, elmi sessiyalarda iştirak etmiş, Nəsimi adına Dilçilik İnstitutunu ləyaqətlə təmsil etmişdir.

Filologiya elmlər doktoru Nəriman Fərman oğlu Seyidəliyevin 2020-ci il martın 6-da 70 yaşı tamam olur. Bu ömür yolunda o, Azərbaycan dilçiliyi üçün yaddaqalacaq işlər görmüşdür.

Görkəmli alimi, zəhmətkeş lüğətçini anadan olmasının 70 illiyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, yeni elmi uğurlar arzulayırıq.

*İsmayıl Məmmədli*